

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 20 (23.432)

1 fevral 2020-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində yanvar ayının ikinci 15 günü ərzində müəyyən Qərarlar qəbul edilmişdir. Belə ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 3 iyun tarixli 70 nömrəli Qərarında dəyişiklik edilmişdir.

Bundan başqa, yanvarın 18-də Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikasında gərginliyi 1000 voltadək olan elektrik şəbəkələrinin mühafizəsi Qaydaları"nın və "Naxçıvan Muxtar Respublikasında gərginliyi 1000 voltdan yuxarı olan elektrik şəbəkələrinin mühafizəsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2005-ci il 29 iyun tarixli 114 nömrəli Qərarında dəyişiklik olunmuşdur.

Həmin tarixdə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin bir sıra qərarlarında da dəyişikliklər edilməsi barədə Qərar qəbul edilmişdir.

Həmçinin Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 yanvar tarixli 22 nömrəli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığorta üzrə Xidmətlər Zərfi" təsdiq edilmişdir. Qərara əsasən icbari tibbi sığorta üzrə Xidmətlər Zərfi Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığorta çərçivəsində sığortaolunanlara göstərilən tibbi xidmətlərin siyahısını və tariflərini növündən asılı olaraq tibbi xidmətlərin göstərilməsi şərtlərini, müştərək maliyyələşmə məbləğlərini, habelə gözləmə müddətlərini müəyyən edir.

Eyni zamanda "Dövlət adından yaradılan publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsi üzrə müqavilənin Nümunəvi Forması"nın təsdiq edilməsi barədə Qərar qəbul edilmişdir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində (*www.huquqiaktlar. nakhchivan.az*) tanış olmaq mümkündür.

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti**

## Şura iclasları keçirilib



***Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının şura iclasını təşkilatın sədri Elman Cəfərli açaraq geniş hesabat məruzəsi ilə çıxış edib, muxtar respublikamızın 2019-cu ildəki inkişafından ətraflı danışıb.***

Qeyd edilib ki, muxtar respublikada həyata keçirilən quruculuq siyasəti Naxçıvan şəhərinin simasında da özünü bariz şəkildə göstərib. Şəhərimiz qədim maddi mədəniyyət abidələrini qoruyub saxlamaqla, sözün əsl mənasında, zövqoxşayan müasir Avropa məkanlarından birinə çevrilib. Təşkilat üzvləri də bu tərəqqiyə töhfələrini verib, inkişaf prosesində yaxından iştirak ediblər.

Bildirilib ki, təşkilat 2019-cu ildə muxtar respublikanın ictimai-siyasi həyatında fəallıq göstərib, ötən ilin dekabr ayında keçirilən bələdiyyə seçkilərində Naxçıvan şəhərinin inzibati ərazisinə daxil olan 5 bələdiyyə üzrə 53 yerdən 41-ni qazanıb. Hazırda təşkilat fevralın 9-da Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə keçiriləcək parlament seçkiləri ilə bağlı işlərini Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının fəaliyyət planına uyğun şəkildə qurur.

Vurğulanıb ki, 2019-cu ildə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sıraları kəmiyyət və keyfiyyət baxımından daha da möhkəmlənib. Belə ki, ötən il təşkilatda 924 nəfər partiya sıralarına qəbul edilib ki, bunların da 912-si 18-35 yaşlı gənc, 489-u qadındır. Hazırda sıralarında 18 min 269 partiya üzvünün fəaliyyət göstərdiyi təşkilat 152 ərazi ilk partiya təşkilatını özündə birləşdirir. Təşkilatda təmsil olunan partiya üzvlərinin 9 min 647-si qadın, 11min 6-sı gəncdir.

Elman Cəfərli ötən il noyabrın 18-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovu qəbul edərkən muxtar respublika haqqında dediyi sözləri xatırladıb: ***"Şadam ki, Naxçıvanda bütün istiqamətlər üzrə işlər yaxşı gedir. Əminəm ki, bu dinamika gələn il də təmin ediləcək. Əminəm ki, muxtar respublika əhalisinin sosial rifahının yaxşılaşdırılması, respublika qarşısında duran bütün vəzifələrin icrası üçün bütün qüvvələr səfərbər ediləcək və 2020-ci il də Naxçıvan üçün uğurlu olacaqdır".***

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri əminliyini bildirib ki, təşkilatın şurası və digər rəhbər strukturları 2020-ci ildə də səylə çalışacaq, ölkəmizin, muxtar respublikamızın ictimai-siyasi həyatında fəal iştirak edəcək və qazanılacaq uğurlara səmərəli fəaliyyətləri ilə öz töhfələrini verəcəklər.

Sonra məruzə ətrafında Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ərazi ilk partiya təşkilatının sədri Elmin Fərəcov və Naxçıvan Şəhər Təşkilatı Gənclər Birliyinin üzvü Tünzalə Dilanova çıxış ediblər.

* * *

*Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatında 2019-cu ilin yekunları və qarşıda duran vəzifələrlə bağlı şura iclası keçirilib. İclasda təşkilatın sədri İsa Məmmədovun məruzəsi dinlənilib.*

Vurğulanıb ki, partiyanın uğurları ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılan Babək rayonunu da əhatə edib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə hər il rayonun qəsəbə və kəndlərində kompleks quruculuq işləri aparılır, məktəb binaları tikilir, yaşayış məntəqələri abadlaşdırılır, körpülər, yollar salınır, yeni iş yerləri açılır. Təkcə ötən il muxtar respublika rəhbərinin iştirakı ilə Babək rayonu ərazisində muxtar respublikada ilk dəfə olaraq müasir ağacyetişdirmə sahəsi – "İqlim otağı", rayon Elektrik Şəbəkəsi üçün inşa olunan yeni inzibati bina istifadəyə verilib. Ötən ilin payızı qədim yaşayış məntəqəsi olan Kültəpə və Gülşənabad kəndlərinin müasirliyə qovuşması ilə də əlamətdar olub.



İsa Məmmədov bildirib ki, 57 ilk partiya təşkilatında 7078 nəfər partiya üzvü qeydiyyatda durur. Bunlardan 2339-u, yəni 33 faizi gənc, 3021-i, yəni 42,6 faizi isə qadınlardır. Partiya üzvlərinin 4470-i dövlət, 2056-sı isə özəl sektorda fəaliyyət göstərir. 2019-cu ildə təşkilatın 12 idarə heyəti, 4 şura yığıncağı olub. Ötən il partiya sıralarına 128 üzv qəbul edilib. Hazırda təşkilat bu il ölkəmizdə, muxtar respublikamızda keçiriləcək parlament seçkiləri ilə bağlı işlərini təqvim planına uyğun aparır.

Qarşıda duran vəzifələrdən də bəhs edən İsa Məmmədov deyib ki, ərazi ilk partiya təşkilatları gənclərlə iş sahəsinə ciddi fikir verməli, dövlətçiliyimizin möhkəmləndirilməsi və partiyanın cəmiyyətdəki nüfuzunun daha da gücləndirilməsi işinə töhfə verə biləcək vətəndaşlar partiya sıralarına cəlb edilməlidir.

Tədbirdə şura üzvü Nihal Məmmədov və Yeni Azərbaycan Partiyası Qadınlar Şurasının sədri Turan Məmmədlinin çıxışları dinlənilib.

**Xəbərlər şöbəsi**

## Muxtar respublikanın təhsil müəssisələrində 1293 gənc kadr fəaliyyət göstərir

Dünən Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində 2 fevral – Gənclər Günü ilə əlaqədar keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov gənclər siyasətinin dövlətin əsas prioritetlərindən biri olduğunu bildirib. Qeyd edib ki, göstərilən hərtərəfli qayğı nəticəsində bu gün Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında ölkəmizin gələcəyinin təminatına çevrilən gənclik formalaşıb, gənclər cəmiyyətin inkişafında fəal sosial təbəqəyə çevrilib. Muxtar respublikada onların potensialından düzgün istifadə olunması, faydalı məşğulluğunun təmin edilməsi, dövlət idarəçiliyi sistemində iştiraklarının gerçəkləşdirilməsi, irəli çəkilməsi, xidmətlərinin qiymətləndirilməsi diqqətdə saxlanılır.



Nazir bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə bilik və bacarıqları qiymətləndirilmiş müəllimlərin əməkhaqları artırılıb, onların işə qəbulu, ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi həyata keçirilib. Eyni zamanda muxtar respublikada pedaqoji profilli ixtisasları bitirərək ucqar dağ kəndlərində fəaliyyətə başlayan gənclərlə stimullaşdırıcı tədbirlər aparılıb. Təhsil müəssisələrində müvafiq vəzifələrə təyinat zamanı innovativ və müasir düşüncəli gənclərə üstünlük verilməsi muxtar respublikada gəncliyə göstərilən dövlət qayğısının bariz nümunəsidir.

Vurğulanıb ki, muxtar respublikada təhsil sahəsində həyata keçirilən kompleks tədbirlər nəticəsində müəllimlik peşəsinə maraq əhəmiyyətli şəkildə artıb, onlar arasında sağlam rəqabət və motivasiya güclənib. Ötən tədris ilində 500 və daha artıq bal toplayanlardan 104-nün, ümumilikdə isə 740 məzunun pedaqoji profilli ixtisasa qəbul olunması bunun əyani ifadəsidir.

Qeyd edilib ki, hazırda muxtar respublikanın təhsil müəssisələrində, ümumilikdə, yaşı 29-dək 1293 gənc kadr fəaliyyət göstərir.

Diqqətə çatdırılıb ki, ümumtəhsil müəssisələrinə işə qəbul üçün 6 müsabiqə keçirilib, həmin vəzifələrə ən yüksək bal toplayan 279 müəllim və 85 gənc kadr təyin olunub. Təhsil Nazirliyi tərəfindən 2019-2020-ci tədris ili üçün keçirilən ikinci müsabiqə yanvar ayında olub, müsabiqəyə 229 yer çıxarılıb. 9-24 yanvar 2020-ci il tarixlərdə reallaşdırılan imtahanlarda 65 gənc kadr ən yüksək keçid balını toplayıb. Onlar fevralın 3-dən etibarən ixtisasları üzrə müəllim kimi fəaliyyətə başlayacaqlar.

Tədbirdə gənc müəllimlərdən Surə Ağayeva və müsabiqədə yüksək bal toplayaraq yeni işə qəbul olan Ramilə Həsənova çıxış edərək muxtar respublikada təhsilin inkişafı və gənclərin işlə təmin olunması üçün yaradılan yüksək şəraitdən, göstərilən qayğıdan danışıblar, gənclər adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildiriblər.

Səmərəli fəaliyyəti ilə fərqlənən gənc dövlət qulluqçularına, məktəb rəhbərlərinə və gənc müəllimlərə diplom və hədiyyələr verilib.

Tədbir bədii hissə ilə davam edib.

**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti**

## Maarifləndirici tədbir olub

***Babək rayonunun Zeynəddin kəndində Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin, Babək Rayon İcra Hakimiyyətinin və rayon Prokurorluğunun birgə təşkilatçılığı ilə torpaqların istifadəsinə və mühafizəsinə dövlət nəzarəti ilə bağlı maarifləndirici tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə rayon İcra Hakimiyyəti başçısının müavini Nihal Məmmədov açaraq bu istiqamətdə görülmüş işlərdən danışıb.

Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin əməkdaşı Nurlan Fətəliyev torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin məqsəd və vəzifələrini tədbir iştirakçılarının diqqətinə çatdırıb.



Qeyd edilib ki, muxtar respublikamızda bütün mülkiyyət növləri üzrə torpaq fondundan səmərəli və məqsədyönlü istifadənin təmin edilməsi diqqətdə saxlanılır, bu məqsədlə mütəmadi monitorinqlər aparılır. Lakin həyata keçirilən tədbirlərə baxmayaraq, vətəndaşlar tərəfindən torpaqlardan təyinatı üzrə istifadə edilməməsi, özbaşına tikililərin aparılması, eləcə də torpaqların mühafizə zonalarında qanunsuz tikililərin inşa edilməsi hallarına hələ də rast gəlinir. Xidmətin mütəxəssisləri tərəfindən aparılan monitorinqlər zamanı Zeynəddin kəndində də torpaqlardan qanunsuz istifadə halları aşkar edilərək aradan qaldırılıb.

Vurğulanıb ki, təyinatı üzrə, səmərəli və müəyyən edilmiş rejimə uyğun istifadə torpağı daha da məhsuldar edir. Torpaq sahəsi ilə bağlı öhdəliklərə və məhdudiyyətlərə əməl etmək isə torpaq üzərində hüquqları həyata keçirən hər bir mülkiyyətçinin, istifadəçinin və icarəçinin başlıca vəzifəsidir.

Rayon prokurorluğunun əməkdaşı Elməddin Bağırov torpaqlardan qanunsuz istifadənin hüquqi nəticələri və yaratdığı məsuliyyət barədə tədbir iştirakçılarına geniş məlumat verib.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti**

## 2 fevral Gənclər Günüdür

# Muxtar respublika gəncləri hərtərəfli qayğı ilə əhatə olunublar



***1997-ci il fevralın 1-də ümummilli lider Heydər Əliyevin Sərəncamı ilə Gənclərin birinci Forumunun keçirildiyi gün – fevralın 2-si Azərbaycanda Gənclər Günü elan edilmişdir.***

Ulu öndər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə sağlamdüşüncəli gənc nəslin yetişdirilməsini, gənclərin ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini diqqət mərkəzində saxlamışdır. Dahi rəhbərin təşəbbüsü ilə hələ Sovetlər Birliyi dövründə Azərbaycan gəncliyinin inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, milli dəyərlərə və tarixi-mədəni irsə bağlı gənc nəslin formalaşdırılmasının əsası qoyulmuşdur. O dövrdə gənclərin təhsili sahəsində həyata keçirilən tədbirlər, xüsusilə milli hərbçi kadrların hazırlanması ölkəmizin gələcəyinə hesablanmış tədbirlər idi. Müstəqillik illərində də ümummilli liderimizin rəhbərliyi ilə gənclərin ölkənin sosial-iqtisadi, ictimai-siyasi həyatında fəal iştirakı təmin olunmuş, onların sosial problemlərinin həlli istiqamətində lazımi tədbirlər görülmüşdür. Dövlət təşkilatlarının gənclərlə iş sahəsindəki fəaliyyətini əlaqələndirmək üçün 1994-cü ildə Gənclər və İdman Nazirliyi yaradılmış, bu sahədə dövlət siyasətinin həyata keçirilməsi məqsədilə zəruri qanunvericilik bazası formalaşdırılmışdır.

Bu gün ölkəmizdə gənclər siyasəti keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Ölkə Prezidenti cənab İlham Əliyevin qayğısı ilə gənclərimiz cəmiyyətimizin inkişafında fəal sosial təbəqəyə çevrilmişdir. Bu sahədə görülən işlərin, həyata keçirilən tədbirlərin nəticəsidir ki, Azərbaycan gəncləri öz intellektual səviyyələri, bilik və bacarıqları ilə ölkəmizin inkişafında yaxından iştirak edirlər.

Muxtar respublikamızda da gənclərin sağlam, vətənpərvər ruhda böyümələri, yüksək səviyyədə təhsil almaları, onların cəmiyyətin müxtəlif sahələrində fəal iştirakını təmin etmək üçün ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Bu gün bizim qarşımızda bir vəzifə durur: Mənəviyyatca təmiz, intellektli və vətənpərvər gənclər yetişdirmək. Gənclərin bir yolu var. Bu yol ölkə Prezidenti tərəfindən uğurla davam etdirilən Heydər Əliyev yoludur. Hər bir gənc yaradılan yüksək şəraitdən və göstərilən dövlət qayğısından bəhrələnərək Vətəni və xalqı üçün layiqli vətəndaş olmağa çalışmalı, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməli və ona göstərilən etimadı doğrultmalıdır”.***

Muxtar respublikamızda gənclərin yüksək səviyyədə təhsil alması, intellektual dünyagörüşünün formalaşması və asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə tədbirlər görülür. Həyata keçirilən tədbirlərin nəticəsi olaraq muxtar respublikada Gənclər Mərkəzi, elektron kitabxanalar, mədəniyyət evləri, ali təhsil müəssisələrində yeni tədris korpusları, məktəb binaları, olimpiya idman və yaşayış kompleksləri tikilərək və ya əsaslı təmir olunaraq gənclərin istifadəsinə verilmişdir.

Gəncliyə qayğı gələcəyə qayğıdır. Ona görə də gənclərlə iş sahəsində həyata keçirilən tədbirlərin əsasını gənclərin ictimai-siyasi, iqtisadi və mədəni həyatda fəal iştirakı, sosial problemlərinin həlli, bu sahədə müvafiq dövlət proqramlarının qəbul olunması, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə irəli çəkilməsi və onların xidmətlərinin qiymətləndirilməsi kimi mühüm tədbirlər təşkil edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında” Fərmanı muxtar respublikada gənclərə göstərilən diqqət və qayğının davamıdır. Bu fərmanla Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı” təsis edilmişdir. Naxçıvan şəhərində Gənclər Mərkəzinin istifadəyə verilməsi gənclərin xüsusi layihələr vasitəsilə vahid bir məkanda toplanması, onların inkişafı, asudə vaxtlarının səmərəli təşkili baxımından xüsusi əhəmiyyətə malikdir.

Muxtar respublikada aparılan müasirtipli məktəb quruculuğu, təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, xüsusilə də məktəblərdə kompüterləşmə, internetdən istifadənin təmin olunması, elektron lövhəli siniflərin, mütaliə vərdişlərinin artırılması üçün zəngin kitabxanaların yaradılması, ən əsası isə tədrisdə yeniliklərin tətbiqi ən ucqar dağ kəndlərini belə, əhatə edib. Şagirdlərdə bilik və elmi dünyagörüşün inkişafı məqsədilə ümumtəhsil məktəbləri ilə ali təhsil müəssisələri, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi, muxtar respublikanın muzeyləri arasında interaktiv dərslər təşkil olunur, ustad dərsləri keçilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə “Oxunması zəruri olan kitablar”ın siyahısının təsdiq edilməsi isə gənc nəslin vətənpərvərlik, adət-ənənələrə bağlılıq ruhunda tərbiyəsində mühüm amildir. Muxtar respublikada mütaliə üçün geniş imkanlar vardır.

Muxtar respublikada ali və orta ixtisas məktəblərindəki ixtisaslar müvafiq dövlət orqanlarının himayəsindədir ki, bu da gənclərin peşəkar kadr kimi yetişməsinə öz töhfəsini verir. Bu gün gənclərin təhsili ilə yanaşı, onların işlə təminatı da əsas məsələlər sırasındadır. İstər dövlət idarəçiliyində, istərsə də ictimai və təsərrüfat fəaliyyətinin digər sahələrində gənclərə böyük etimad göstərilir. Ölkəmizin inkişafında, müstəqil dövlətimizin möhkəmlənməsində və müdafiəsində gənc kadrların potensialından geniş istifadə olunur.

İdman və bədən tərbiyəsi gənc nəslin fiziki inkişafında və sağlam böyüməsində mühüm rol oynayır. Bu amil nəzərə alınaraq muxtar respublikada idmanın kütləviliyinə xüsusi diqqət yetirilir. Son illər muxtar respublikanın şəhər və rayonlarında olimpiya idman komplekslərinin, idman mərkəzlərinin, Uşaq-gənclər idman və şahmat məktəblərinin, orta məktəblərdə idman zallarının və açıq idman qurğularının istifadəyə verilməsi gənclərin hərtərəfli böyüməsinə xidmət edir. Yaradılan imkanlardan istifadə edən gənclər Azərbaycan və dünya miqyaslı yarışlarda və çempionatlarda uğurla iştirak edərək Naxçıvan idman məktəbinin adını yüksəldirlər.

Gənclərə göstərilən diqqət, qayğı və etimadın bariz nümunəsidir ki, Naxçıvan şəhəri 2018-ci il üçün ölkəmizin Gənclər Paytaxtı seçilmişdir. Bu gün gənclərimiz üzərlərinə düşən vəzifələri dərk edir, muxtar respublikanın dünyada tanıdılması istiqamətində sosial şəbəkələrdə də fəallıq göstərirlər.

Muxtar respublikada həyata keçirilən dövlət gənclər siyasətinin mühüm istiqamətlərindən birini də gənclərin sosial problemlərinin həlli, xüsusilə də mənzil şəraitinin yaxşılaşdırılması təşkil edir. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan şəhərində yeni yaşayış kompleksi, rayon mərkəzlərində yaşayış binaları tikilərək istifadəyə verilmiş, gənclərin mənzil sahibi olmaları üçün tədbirlər görülmüşdür. Hazırda Naxçıvan şəhərində yeni Gənclər yaşayış kompleksinin tikintisi davam etdirilir.

Bu gün gənclərin sosial şəbəkələrdə fəallığı da artmışdır. “Naxçıvan həqiqətləri”, “Naxçıvan gəncləri”, “Naxçıvan xəbərləri” və “Xaricdə təhsil alan naxçıvanlı gənclər” sosial şəbəkə qruplarında gənclər Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırır, muxtar respublikanın turizm potensialını tanıdırlar.

Ölkəmiz inkişaf etdikcə gənclərimiz üçün yaradılan şərait də, onların fəaliyyət imkanları da genişlənir. Bu da Azərbaycanın uğurlu gələcəyini təmin edən əsas amildir.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Gənclər Günü münasibətilə tədbirlər

*2 fevral – Gənclər Günü münasibətilə Naxçıvan Dövlət Universitetinin tələbələri arasında “Xəmsə” intellektual oyunu keçirilib.*



Universitetin Tələbə-Gənclər Təşkilatının layihəsi əsasında Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunda keçirilən yarışın məqsədi gənclərin intellektual dünyagörüşünü inkişaf etdirmək, onların asudə vaxtlarının səmərəli təşkilinə nail olmaqdır.

Tədbirdə Universitetin Tələbə-Gənclər Təşkilatının sədri Zümrüd Səfərova gəncləri əlamətdar tarixi gün münasibətilə təbrik edib, onlara uğurlar arzulayıb. Bildirilib ki, əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda uğurla davam etdirilir. Universitetdə tələbə-gənclər üçün yaradılan mövcud imkanlar haqqında danışan təşkilat sədri gəncləri daha fəal olmağa çağırıb.

Tələbələrə müvafiq qaydalar izah edildikdən sonra yarışa start verilib. İntellektual oyunun nəticələrinə görə universitetin İqtisad fakültəsi qalib olub. Tarix-filologiya fakültəsi II, Beynəlxalq münasibətlər və xarici dillər fakültəsi isə III yerə çıxıb.

**Səadət ƏLİYEVA**

* * *



*“Naxçıvan” Universitetində 2 fevral – Gənclər Gününə həsr olunmuş “Gənclər gələcəyimizdir” mövzusunda tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə universitetin rektoru, dosent Nurlana Əliyeva açaraq ölkəmizdə, o cümlədən muxtar respublikada həyata keçirilən gənclər siyasətindən, bu sahədə əldə olunan nailiyyətlərdən danışıb. Bildirib ki, bu gün Azərbaycan gəncləri ictimai-siyasi, sosial-mədəni və digər sahələrdə fəal iştirak edirlər. Muxtar respublikada məşğul əhalinin əksəriyyətinin gənclərdən ibarət olması, onların dövlət orqanlarında irəli çəkilməsi gənclərə göstərilən diqqət və qayğıdan xəbər verir. Bu qayğını hər zaman diqqət mərkəzində saxlayan Prezident cənab İlham Əliyevin “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”nın təsdiq edilməsi haqqında Sərəncam imzalaması dövlətimizin gəncliyə verdiyi önəmin daha bir parlaq göstəricisidir.

Tədbirdə universitetin müəllimi, dosent Aypara Behbudovanın, Tələbə-Gənclər Təşkilatının sədri Zakir Məmmədovun, dissertant Emelya Süleymanovanın və İqtisadiyyat fakültəsinin III kurs tələbəsi Məhərrəm Həsənovun çıxışları dinlənilib.

**Seyfur HACIMURADOV**

* * *

Naxçıvan Müəllimlər İnstitutunda keçirilən tədbiri institutun prorektoru Azad Novruzov giriş sözü ilə açaraq qeyd edib ki, ölkəmizdə olduğu kimi, muxtar respublikamızda da gənclər siyasətinə xüsusi önəm verilir. Dövlət proqramlarına uyğun olaraq gənclərin vətənpərvərlik tərbiyəsi, onların sağlamlığının qorunması daim diqqətdə saxlanılır. Xüsusi qayğıya ehtiyacı olan gənclərin dəstəklənməsi, məşğulluğunun, sahibkarlıq və yaradıcılıq fəaliyyətinin diqqətdə saxlanılması, asudə vaxtlarının təşkili məqsədilə bir sıra tədbirlər görülür. Tələbələrin elmi, mədəni və ictimai fəaliyyətlərinin stimullaşdırılması və digər müddəaların həyata keçirilməsi üçün mütəmadi və ardıcıl iş aparılır.

Sonra Təbiət və incəsənət fakültəsinin dekan müavini Çapay Quliyev çıxış edərək Azərbaycanda dövlət gənclər siyasətinin bəhrələrindən danışıb.

Tədbirdə Təbiət və incəsənət fakültəsi gənclər təşkilatının sədri Eltac Qurbanov, Tələbə Elmi Cəmiyyətinin sədri Fatimə Həsənova, institutun



tələbə Həmkarlar İttifaqının sədri Günel Məmmədova çıxış ediblər.

Sonda təhsildə və ictimai işlərdə fərqlənən tələbələrə fəxri fərmanlar təqdim olunub.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

# Komissiyanın iclası keçirilib

*Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın iclası keçirilib. Əvvəlcə komissiyanın sədri Ramilə Seyidova gündəlikdə duran məsələlərlə bağlı məlumat verib.*



Bildirilib ki, 2019-cu il muxtar respublikada bütün uşaqların, o cümlədən hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının qorunması ilə əlaqədar müxtəlif tədbirlər həyata keçirilib. Hesabat ili ərzində 9 uşaq qəyyumluq və himayəyə verilib. Bayram günlərində və tədbirlərdə xüsusi qayğıya ehtiyacı olan 1006 uşağa hədiyyə və sovqatlar verilib. 15 sentyabr – Bilik Günü ilə əlaqədar xüsusi kateqoriyadan olan 379 uşaq məktəbli paltarı, dərs ləvazimatları və qış geyimi ilə təmin olunub.

Qeyd edilib ki, 2019-2020-ci tədris ilində ümumtəhsil müəssisələrinin birinci siniflərinə 83, distant tədrisin birinci sinfinə 6, Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbin birinci sinfinə 2, məktəbdənkənar müəssisələrin dərnəklərinə 126, şahmat məktəblərinə 59, idman məktəblərinə 168, uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinə 111, məktəbəqədər təhsil müəssisələrinə, ümumtəhsil məktəblərində fəaliyyət göstərən hazırlıq qruplarına və Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin defektoloji bölmələrinə 193 sağlamlıq imkanları məhdud uşaq cəlb edilib. Həmçinin hesabat ili ərzində Naxçıvan Uşaq Bərpa Mərkəzində 435 uşaq müalicə alıb, 73 uşağa protez-ortopediya xidmətləri göstərilib, 58 uşağa texniki reabilitasiya vasitələri verilib.

Vurğulanıb ki, ötən il keçirilən müxtəlif müsabiqə və yarışlarda 20085 uşaq iştirak edib, qaliblərə və iştirakçılara diplom, hədiyyələr verilib. Muxtar respublikanın şəhər və rayonlarında keçirilən tədbirlərdə 1681 uşağa hədiyyə təqdim olunub.

Diqqətə çatdırılıb ki, hesabat dövründə 20 uşaq müəssisəsində dövri monitorinq aparılıb, uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının proqram təminatı yenilənib, siyahıya alınan uşaqların sayı 24489 nəfərə çatıb.

Ramilə Seyidova bildirib ki, muxtar respublikada uşaqlar arasında keçirilən müxtəlif idman yarışlarında 7200-dən artıq, intellektual olimpiada və oyunlarda isə 1042 uşaq iştirak edib. Bu gün muxtar respublikada 26000-dən artıq uşaq idmanla məşğul olur ki, bunlardan da 8000-ə yaxını qızdır.

Sonra məruzə ətrafında Ordubad və Şahbuz Rayon İcra hakimiyyətləri yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə komissiyalarının sədrləri, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın üzvləri, Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri çıxış ediblər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

Naxçıvan dünya mətbuatında

# Naxçıvanın yeni üzü

***Azərbaycanın ayrılmaz parçası olan Naxçıvan son illər sosial-iqtisadi sahədə sürətlə inkişaf etmişdir. Naxçıvandakı genişmiqyaslı yenidənqurma işləri, inkişaf Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və onun siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun adları ilə bağlıdır. Qədim Azərbaycan torpağı Naxçıvanın hərtərəfli olaraq tarixin bütün dövrlərində daha uğurla inkişaf etdiyi göz önündədir.***

Naxçıvan tarixin bütün dövrlərində şahidlik edən mühüm mərkəzlərdəndir. Naxçıvan yerləşdiyi coğrafi mövqeyə görə tarix boyunca Şərq ilə Qərb, Şimal ilə Cənub arasında mühüm keçid və əlaqə mərkəzi olmuşdur.

Böyük türk yurdu olan Naxçıvan tarixinin Skitlər və Xəzərlər dövrünə qədər uzandığı qeyd olunur. Bu bölgə coğrafi mövqeyinə görə Qafqaz və Anadolu-İran xəttindəki Sasani, Bizans, Skit, Xəzər kimi dövlətlərin mücadilələrinə şahidlik etmişdir.

Müsəlmanların bu əraziləri fəth etməsinin ardından ərəb valiləri, Səlcuqlar, Atabəy Eldəniz dövləti, Xarəzmşahlar, Elxanilər, Teymurilər, Ağqoyunlular, Qaraqoyunlular, Səfəvilər və Qacarların idarəçiliyində qalmışdır. Osmanlı-Səfəvi müharibələri zamanı Cənubi Qafqazın bəzi bölgələri kimi, Naxçıvan da daim təzyiqlər altında olmuşdur.

1918-1921-ci illərdə Naxçıvan çox çətinliklərlə üzləşmiş, dəfələrlə erməni təcavüzündən qorunmaq üçün Türk ordusunun köməyi ilə düşmənə qəhrəmanlıqla müqavimət göstərmişdir. Türkiyə ilə Sovetlər Birliyi arasında 16 mart 1921-ci il tarixdə imzalanan Moskva müqaviləsi ilə Naxçıvan muxtar statusa malik olması və başqa bir dövlətin tərkibinə verilməməsi şərtilə Azərbaycanın tərkibində qalmışdır. Bu məsələ Türkiyə, Sovetlər Birliyi, Azərbaycan, Ermənistan və Gürcüstan arasında 13 oktyabr 1921-ci ildə imzalanan Qars müqaviləsində də təsdiq edilmişdir.

Sovetlər Birliyi tərəfindən Azərbaycan ilə Naxçıvanı birləşdirən Zəngəzur bölgəsinin Ermənistana verilməsindən sonra Naxçıvanın Azərbaycanın digər bölgələri ilə quru əlaqəsi kəsildi. Bu zaman ermənilər Naxçıvanı da ilhaq etmək üçün səy göstərdilər, lakin Naxçıvanın Moskva və Qars müqavilələrindəki müddəaya uyğun olaraq Azərbaycanın tərkibində muxtar respublika kimi mövcudluğu qorunub saxlanıldı. 1991-ci ildə Azərbaycan müstəqillik qazandıqdan sonra da Naxçıvan Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi kimi muxtar respublika statusunu qorudu.

Ankarada Türkiyə Böyük Millət Məclisi hökuməti, Türkiyə Cümhuriyyətini qurmadan Naxçıvan Muxtar Respublikasının təməllərini də atmışdır. Çünki Osmanlı İmperiyasının 15-ci korpus komandiri olan Kazım Qarabəkir Paşa Naxçıvanı 1918-ci ildə Ermənistanın işğalından xilas etmişdi. Naxçıvanı "Şərqin qapısı" adlandıran da Kazım Qarabəkir Paşa olmuşdur.

Orta Asiyadakı qardaşlarımızla Azərbaycan üzərindən əlaqələrin qurulmasında Naxçıvanın "giriş qapısı" olduğunu bilən Atatürk, Naxçıvanın muxtariyyət statusuna və Azərbaycana bağlı qalmasına xüsusi önəm vermişdir. Məlumdur ki, o, Naxçıvanı "Türk qapısı" adlandırmış və Naxçıvanla sərhəd olmaq üçün İrandan torpaq da almışdır.

Sovetlər Birliyinin dağılması ilə 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Naxçıvanla Türkiyə arasındakı "dəmir pərdə" də aradan qaldırıldı. Artıq aramızdan, sadəcə, Araz çayı axır. 1992-ci ildə tikilən Dilucu körpüsü vasitəsilə iki ölkə arasında əlaqələr bərpa edilmiş, "bir millətin iki dövləti" bir ailə olaraq yenidən birləşmişdir. Bizim "Həsrət körpüsü", qardaşlarımızın isə "Ümid körpüsü" adlandırdıqları körpünün açılış mərasimi 1992-ci ilin 28 mayında olmuş, Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev mərasimdə iştirak etmişlər. Bu körpü iki ölkə arasında birəsrlik həsrəti aradan qaldırmaqla bərabər, eyni zamanda Naxçıvanın son illərdəki iqtisadi inkişafını da sürətləndirdi. Bu gün Naxçıvanın sosial sahədə əldə etdiyi nailiyyətləri isə sadalamaqla bitməz.

Mustafa Kamal Atatürkün "Türk qapısı", Kazım Qarabəkir Paşanın "Şərqin qapısı" adlandırdığı Naxçıvan Muxtar Respublikasının türk respublikaları arasında Türkiyə ilə çox yaxın əlaqəsinin olması ölkəmiz üçün xüsusi bir məna və əhəmiyyət kəsb edir.

Moskva müqaviləsindən əvvəl danışıqlar üçün Rusiyaya gedən heyətin tərkibində iştirak edən Yusif Kamal bəy Ankaranı tərk etməzdən bir gün əvvəl, dekabrın 13-də Mustafa Kamal Paşa ilə görüşmüş və demişdir: "Paşa, ruslar Naxçıvanı israrla istəsələr nə etməliyik?", "Naxçıvan türk qapısıdır. Bu məsələni xüsusi nəzərə alaraq əlinizdən gələni edin", – deyə Mustafa Kamal cavab vermişdir. Razılaşma ilə Naxçıvanın Azərbaycana bağlılığı Mustafa Kamal Paşa tərəfindən müsbət qarşılanmışdır. Ankaraya qayıdan Yusif Kamal bəy: "Möhtərəm Paşa! Naxçıvanı qorumaqla bağlı əlimizdən gələni etdik", – deyəndə Paşa cavab vermişdir: "Yusif Kamal bəy! Qapımız varlığını qoruyur, bizim üçün vacib olan budur".

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: ***"Naxçıvan dünya əhəmiyyətli tarixi-memarlıq abidələrinə sahibdir. Bu abidələr Azərbaycan xalqının tarixini, mədəniyyətini, adət-ənənələrini özündə əks etdirən abidələrdir... Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında xüsusi rol oynayan Naxçıvan tarixin canlı şahididir ".***

Qədim tarixə malik olan diyar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə öz simasını daha da dəyişmiş, burada bütün sahələrdə geniş quruculuq işləri aparılmış, yeni yollar salınmış, kəndlə şəhər arasındakı fərq aradan qaldırılmış, müasir standartlara cavab verən məktəblər, səhiyyə müəssisələri inşa olunmuş, ən son avadanlıqlarla təmin edilərək əhalinin istifadəsinə verilmişdir. Tarixi abidələr bərpa olunmuş, yeni istehsal müəssisələri yaradılmış, insanların maddi rifah halı yaxşılaşdırılmış, dövlət qulluqçularının maaşları iki dəfə artırılmışdır.

Milli-mənəvi dəyərlərə böyük önəm verilən Naxçıvan Muxtar Respublikasında bu diyarın özünəməxsus adət-ənənələri, yerli mətbəxi, mədəniyyəti və tarixi ilə bağlı beynəlxalq festivallar, simpoziumlar keçirilir. Heydər Əliyev Sarayı, Heydər Əliyev Muzeyi, Bayraq Meydanı və Muzeyi, Naxçıvan Dövlət Xalça Muzeyi, Möminə xatın türbəsi, qoç heykəllərin olduğu Açıq Səma Altında Muzey, Xan sarayı, Hüseyn Cavid məqbərəsi, Dövlət Tarix Muzeyi, Qızlar bulağı, Heydər məscidi, İsmayıl xan hamamı, Naxçıvanqala Tarix-Memarlıq Muzey Kompleksi, dəmiryol vağzalı, Saat Meydanı, Xalq qəhrəmanları Babəkin, Koroğlunun heykəlləri, Dədə Qorqudun abidəsi, xüsusilə də Duzdağ Fizioterapiya Mərkəzi və "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi Naxçıvanın gəzibgörməli yerlərindəndir.

Naxçıvan tarixi qorunub saxlanılan, hər sahədə dəyərli ziyalıların və idarəçilik təcrübəsinə malik insanların yetişdiyi bir diyardır.

Can Azərbaycanın bir hissəsi olan Türk Yurdu Naxçıvana səmimi salamlar.

**Ziya Zakir Acar**
**Yesiligdir.com**
**28 yanvar 2020-ci il**

# Sağlam cəmiyyət, sağlam gənclik və gələcək naminə



*Sağlam cəmiyyət hər bir dövlətin strateji məqsədi və prioritet məsələsidir. Müasir gənclərin hərtərəfli formalaşması, sağlam, vətənpərvər ruhda yetişdirilməsi məhz dövlətin gənclər siyasətinin uğurlu davamının bəhrələridir. Məqsədyönlü gənclər siyasəti hər bir vətəndaşın idmana maraq göstərməsi, mütəmadi olaraq bununla məşğul olmasına da zəmin yaradır. Nəticədə, idmanın kütləviliyini təmin edən dövlət sağlam nəslin də formalaşmasına nail olur. Sağlam cəmiyyət isə sağlam gələcək deməkdir.*

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu, milli maraqlara əsaslanan çoxşaxəli idman strategiyası bu sahəni Azərbaycanda, yaşadığımız cəmiyyətdə önəmli bir ictimai amilə çevirib. Ölkəmizdə idmançılara dövlət qayğısı ilə yanaşı, idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində də əhəmiyyətli işlər görülüb, şəhər və rayonlarda idman infrastrukturunun yaradılmasında böyük uğurlar əldə edilib.

İdman sahəsində qazanılan qələbələr həm də cəmiyyətin vətənpərvərlik ruhunu artırır, yeniyetmə və gənclərin Vətənə sədaqət hissini yüksəldir, ölkəmizi dünyada təbliğ edir. Bu qələbələr idmanın kütləviliyini təmin edir, idmançılarımızın həyatda prinsipiallıq, ləyaqət nümunəsini göstərir.

Muxtar respublikamızda da idman və idmançılara yüksək dəyər verilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Gənclərin asudə vaxtının səmərəli təşkilində, onların sağlam böyüməsində və gələcəyə hazırlanmasında idmanın mühüm rolu vardır. Çünki cəmiyyətin sağlamlığı insanların, xüsusilə də gənclərin sağlamlığından asılıdır. Bu mənada, hər bir gəncə ölkənin gələcəyi kimi baxmaq lazımdır. Muxtar respublikada bu məsələ diqqətdə saxlanılır, gənclərin idmana və təhsilə cəlbi istiqamətində ardıcıl tədbirlər görülür, hər il bədən tərbiyəsi və idmanın inkişafı ilə bağlı müşavirə keçirilir, vəzifələr müəyyənləşdirilir. Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında yaradılan müasir təhsil və idman infrastrukturu gənc nəslin bacarığına görə peşə seçiminə və təhsil almasına, müxtəlif idman növləri ilə məşğul olmasına imkan verir..."***



Bəli, bu gün muxtar respublikamızda sağlam düşüncəyə malik, vətənpərvər ruhda böyüyən gənclik formalaşmaqdadır. Nəzərə alsaq ki, idmanla məşğul olan insanların əksəriyyəti gənclərdir, o zaman belə bir qənaətə gələrik ki, idmana qayğı, idmanın kütləviliyi həm də onların inkişaf etdirilməsi sahəsində görülən işdir. Bu baxımdan Naxçıvanda gənclərin hərtərəfli formalaşmasına, idmanın inkişafına istiqamətlənmiş dövlət proqramları qəbul edilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisində Naxçıvanda bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirələrdə bu sahənin dinamik inkişafına hədəflənmiş prioritet istiqamətlər, mühüm vəzifələr müəyyənləşdirilir. Gənclər arasında maarifləndirici təbliğatın aparılması, onların idmana cəlb olunması bu məsələdə əsas xətt sayılır: məqsəd onların sağlamlığının qorunması və buna xidmət edən təşviqedici və maarifləndirmə tədbirlərinin keçirilməsidir.

Muxtar respublika rəhbəri idman və bədən tərbiyəsinin inkişafı sahəsində kompleks tədbirlərin həyata keçirilməsinə hər zaman önəm verir. Burada müxtəlif idman federasiyalarının fəaliyyət göstərməsi, diyarımızın bütün şəhər və rayonlarında idmanla məşğul olan insanların əksər obyektlərin formalaşdırılması belə tədbirlərdəndir. Bunlar isə gənc nəslin sağlam ruhda tərbiyəsinə, idmanın kütləviləşməsinə xidmət edir. Eyni zamanda uğur qazanan idmançılarımıza maddi-mənəvi dəstək yeni-yeni zəfərlər qazanılmasına şərait yaradır. Həmin diqqət və qayğı beynəlxalq idman qurumları tərəfindən də yüksək qiymətləndirilir. Bu da bir çox mötəbər turnirlərin muxtar respublikamızda təşkili üçün əlavə stimuldur.

Qədim diyarımızda hər bir idman növü üzrə yarışların, turnirlərin keçirilməsi üçün böyük imkanlar var. Bu da onu deməyə zəmin yaradır ki, Naxçıvan idman mərkəzlərindən birinə çevrilməkdədir. Ümumiyyətlə, müəyyən bir sektorun inkişafı o sahənin maddi-texniki bazasının, vəziyyətinin yaxşılaşdırılmasından asılıdır. Ali Məclis Sədrinin təşəbbüsü ilə şəhər və rayonlarda müasir idman obyektlərinin tikilərək uşaq, yeniyetmə və gənclərin ixtiyarına verilməsi diyarımızda idmanın inkişaf strategiyasının düzgün qurulduğunu bir daha nümayiş etdirir.

Hazırda muxtar respublikada idmanın əsas istiqamətləri bu sahəni uşaq, yeniyetmə və gənclərin şüurunda sağlam həyat tərzi kimi formalaşdırmaq, yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir. Məhz bu amil nəticəsində idmanın insanlığın vacib həyat norması olduğu fikrini qəbul edənlərin sayı günü-gündən artmaqdadır. Bu da cəmiyyətimizin mədəni dəyərlər



sisteminin əsas komponentlərindən biri olan sağlamlığı və fiziki hazırlıq səviyyəsini qorumaq deməkdir.

Bu gün Naxçıvanda istər olimpiya, istərsə də qeyri-olimpiya idman növləri geniş vüsət alıb. Ələlxüsus, qadınların idmana cəlbi yönündə atılan mühüm addımlar diyarımızda zərif cinsin nümayəndələrinin beynəlxalq arenalarda uğur qazanmasına səbəb olub. Muxtar respublika idmançılarının qısa vaxt kəsiyində əldə etdiyi uğurlar beynəlxalq idman təşkilatlarının diqqətindən yayınmır.

Naxçıvanda bədən tərbiyəsinin həyat tərzinə çevrilməsi həm də yarış təşkilatçılığından asılıdır. Beynəlxalq idman yarışlarının diyarımızda keçirilməsi barədə verilən qərarları da təsadüf hesab etmək olmaz. Təhlükəsizliyin, sabitliyin tam təmin olunması, eyni zamanda müasir idman infrastrukturuna görə regionda lider bölgə hesab edilən Naxçıvan həm də yarışların yüksək səviyyədə təşkilatçılığı baxımından xüsusi ada malikdir. Bu həm də diyarımızın təbliğində əhəmiyyətli təsir vasitəsidir.

Hər il idmançılarımızın yüksək nailiyyətlər əldə etməsi artıq ənənə halını alıb. Geridə qoyduğumuz ildə onlar respublika səviyyəli yarışlarda 179, beynəlxalq miqyaslı turnirlərdə 165, dünya səviyyəli yarışlarda 5, Avropa çempionatlarında 20 olmaqla, ümumilikdə, muxtar respublikadan kənar yarışlarda 369 medal qazanıblar ki, bu da Naxçıvanda idman siyasətinin düşünülmüş şəkildə aparılmasının bariz nümunəsidir.

*Təbii ki, bu uğurlar Naxçıvanın idman siyasətinin təbliğçisi kimi imicinin möhkəmlənməsində mühüm rol oynayır. Bu gün əminliklə deyə bilərik ki, muxtar respublikamızda sürətli sosial-iqtisadi inkişaf fonunda idman sahəsində bundan sonra da yeni zirvələr fəth olunacaqdır.*

**Ceyhun MƏMMƏDOV**

*Bu gün ölkəmizdə ictimai maraqları naminə təmənnasız əmək sərf edən insanların sayı yüzlərlədir. Onlar könüllülük fəaliyyətinə qoşulmaqla insan hüquq və azadlıqlarının, qanunçuluğun, sülh mədəniyyətinin, tolerantlığın, mədəni tarixi sərvətlərin qorunması, sağlamlıq imkanları məhdud şəxslərə, əhalinin aztəminatlı təbəqəsinə, qocalara, qaçqın və məcburi köçkünlərə kömək edilməsi, yeniyetmə və gənclərlə işlərin aparılması, ətraf mühitin mühafizəsi və ekoloji tarazlığın saxlanması, təbliği kimi müxtəlif sahələrdə vahid niyyət ətrafında birləşirlər. Bu fəaliyyətlə təmənnasız məşğul olan şəxslər "könüllülər" adlanır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2020-ci ilin "Könüllülər ili" elan olunması ölkəmizdə, eləcə də onun ayrılmaz hissəsi olan muxtar respublikamızda da könüllülüyün yeni mərhələsinin inkişafına, təşəbbüskar, innovativ düşüncə tərzli və müasir dünyagörüşlü gənclərin formalaşmasına imkanlar açacaq.*

*2020-ci il "Könüllülər ili"dir*

# Könüllülük: Naxçıvan gəncliyinin siması

Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyevlə "Könüllülər ili"nin muxtar respublikamız üçün əhəmiyyəti, diyarımızda könüllülük fəaliyyəti barədə həmsöhbət olduq. Cəbi müəllim qeyd etdi ki, ölkəmizdə könüllülük fəaliyyətinin tarixi çox qədimdir. Bu zaman-zaman xalqımızın məişətində, adət-ənənələrində, mədəniyyətində öz əksini tapıb. Bu gün könüllülük Azərbaycanda kamillik zirvəsinə doğru yol alıb. Xüsusi qeyd etmək istəyirəm ki, ölkədə əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin doğma diyarımızda uğurla davam etdirilməsinin nəticəsidir ki, gənclərimiz həyatın müxtəlif sahələrində sosiallaşa, kommunikativ imkan və bacarıqlarını artıra, ölkəmizin ictimai-siyasi və mədəni həyatında fəal təmsil oluna bilirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası istiqamətində həyata keçirilən tədbirlər muxtar respublikada könüllülük fəaliyyətinin təşviqinə marağı artırıb. Bu işdə Gənclər Fondu da xüsusi rol oynayır. Artıq fondun könüllülük proqramının iştirakçılarının sayı 400-ü keçib. Fond 4 platforma üzrə könüllülərlə işləyir və bu platformaların sayını artırmağa çalışır.

Cəbi müəllim bildirir ki, fondun təşkilati işlərində də könüllülərdən istifadə edilir. Hər tədris ilinin əvvəlində fond əməkdaşları tərəfindən tələbələrlə keçirilən görüşlərdə könüllülük fəaliyyəti təbliğ edilir. Ötən illər fondun kütləvi tədbirlərinin çoxunda könüllü gənclər aktiv iştirak ediblər. Naxçıvan şəhərində Gənclər Paytaxtı çərçivəsində reallaşan tədbirləri, şəhər mərkəzindəki ilk irimiqyaslı fləşmobu, "Yer saatı" ekoloji aksiyasını, "Novruz qatarı"nı və 2019-cu ilin may ayında baş tutan Naxçıvan marafonunu, intellektual oyunlar üzrə çoxnövçülük turnirlərini buna misal göstərmək olar. Həmçinin aidiyyəti qurumlarla birgə vətəndaşların işinin asanlaşdırılmasına təmənnasız olaraq yardım edən "Səyyar dövlət qulluğu xidməti könüllüləri", ekologiyamızın və təbii sərvətlərin qorunması istiqamətində maarifləndirmə missiyası aparan "Ekologiya könüllüləri", sosial sahədə xidmət göstərən "Sosial könüllülər" layihələri uğurla icra edilir. Bu layihələrin hər biri könüllülərin yetişdirilməsi, kollektivdə çalışmaq kimi bacarıqlarını, gələcəkdə onların dövlət qurumlarında işlə təmin olunması imkanlarını artırır.

Bildirmək istərdim ki, fond könüllüləri daim startap kimi gələcək üçün uğur vəd edən yeni layihələr ilə çıxış edirlər. Sosial könüllülər tərəfindən fonda 8 layihə ilə müraciət olunub. Hazırda belə layihələrin dəyərləndirilməsi istiqamətində işlər aparılır. Gənclər Fondunun 2020-ci il üçün nəzərdə tutulan fəaliyyət planında könüllülərlə bağlı bir çox layihələrin keçirilməsini, həmçinin belə gənclərin sayını 1000 nəfərə çatdırmağı nəzərdə tutmuşuq. Qarşımızdakı əsas məqsədlərdən biri də Könüllü Gənclərin İdeya Mərkəzini yaratmaqdır. Düşünürəm ki, bu mərkəz könüllü gənclərin fəaliyyət imkanlarının genişlənməsinə şərait yaradacaq.

Muxtar respublikada hər bir gənc yaradılan imkanlardan səmərəli istifadə edə, könüllü gənc kimi özünü təkmilləşdirə, inkişaf etdirə bilər. Cəbi müəllim qeyd edir ki, 2020-ci ilin ölkəmizdə "Könüllülər ili" elan edilməsi gəncliyə göstərilən böyük diqqətin bariz nümunəsidir. İnanırıq ki, "Könüllülər ili" muxtar respublikamızın gəncləri üçün uğurlu bir il kimi yaddaşlarda qalacaq.

Muxtar respublikanın könüllü gəncləri ilə də həmsöhbət olduq, onların fəaliyyətləri ilə maraqlandıq.



**Təbrizə Bağırova:** – 2018-ci ildə Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu tərəfindən elan olunan, ilk dəfə həyata keçirilən 3 aylıq könüllülük layihəsində iştirak etdim. Qürur duyuram ki, Naxçıvanımızın ilk könüllülərindənəm. Bu proqramı bitirsəm də, fəaliyyətimi yenə də davam etdirirəm. Könüllü olmaq yeni dostluqlar, müasir mühit və layihələr, intellektual görüşlər deməkdir. Həmçinin humanistlik, vətənpərvərlik, birgə, qarşılıqsız görülən əməkdir. Muxtar respublikamızda gənclərə göstərilən qayğı yüksəkdir. Elə könüllülük proqramında da biz bunun canlı şahidi olduq. Təşkilatçı qismində tədbirlərdə iştirak etmək gələcək iş fəaliyyətimizdə bizə yeni-yeni üfüqlər açacaq.



**Günay Abbasova:** – Biz gənclər arasında belə ifadə var ki, könüllülük könül işidir. Bir ildən çoxdur ki, Gənclər Fondunda könüllüyəm. Bu, müddətdə müxtəlif tədbirlər keçirilir ki, bu, gənclərin həm fərdi, həm də sosial, ekoloji yönümdən inkişafına gətirib çıxarır. Bu tədbirlər davamlıdır. Könüllü kimi rayon və kəndlərə gedir, ahıllarla, sağlamlıq imkanları məhdud uşaqlarla və müəyyən yaş qrupuna aid şəxslərlə görüşür, onlara hansısa çətinliyin öhdəsindən gəlməkdə dəstək oluruq. Məncə, könüllülük cəmiyyətə inteqrasiyadır, öz potensialını daha da inkişaf etdirməkdir, eyni zamanda insana, təşkilata, ətraf mühitə, cəmiyyətə göstərilən köməkdir. Fəaliyyətim dövründə layihələrə görə diploma və "İlin ən fəal könüllüsü" nominasiyası üzrə təltif edilmişəm.



**Əli Yaqubov:** – "Naxçıvan" Universitetinin tələbəsiyəm. Gələcək karyera fəaliyyətimə könüllülükdən başlamaq istədim. Gənclər Fondunun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya ilə birgə reallaşdırdığı səyyar dövlət qulluğu xidməti könüllüsü kimi muxtar respublikanın bir sıra rayonlarına gedir, orada yaşayan vətəndaşlara köməklik göstəririk. Fikrimcə, uğura gedən yol məhz elə bu məramdan başlayır.



**Nailə Abbaslı:** – Naxçıvan Dövlət Universitetinin Ekologiya mühəndisliyi ixtisasında təhsil alıram və asudə vaxtımı dəyərləndirmək, öyrənmək üçün könüllü olmağı seçdim. Mən ekologiya könüllüsü kimi ətraf mühitin mühafizəsi, təbii sərvətlərin və ekologiyanın qorunması sahəsində aparılan işlərdə yaxından iştirak edirəm. Sosial könüllü kimi hər şənbə günü tənha ahılları ziyarət edir, onlara işlərində köməklik göstəririk. Bunun qarşılığında onların çöhrəsində sevinc və razılıq hissini görmək isə müsbət enerji verir. Bunların hamısını ürəkdən edirik. Həmçinin muxtar respublikada valideyn himayəsindən məhrum olmuş uşaqlar, gənclər, fiziki məhdudiyyətli şəxslər də daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Gənclər Fondu və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birgə əməkdaşlığı ilə fiziki məhdudiyyətli uşaqlar üçün Yeni il şənliyi təşkil olundu və mən burada könüllü kimi fəal iştirak etdim. Biz könüllülər bir ailəyik. Bu ailədə biz çox şeyləri birgə öyrənirik, dünyagörüşümüz formalaşır. Bu, həyatımıza dinamiklik qatır və heç şübhəsiz ki, fərdi inkişafımıza böyük təkan verir.



**Səma Xəlilli:** – 2019-cu ildən etibarən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyində könüllü kimi fəaliyyət göstərirəm. Ötən il bu fəaliyyətimə görə "İlin fəal gənci" adına layiq görülmüşəm. Bu günə qədər nazirlik tərəfindən keçirilən bir çox layihələrdə, tədbirlərdə aparıcı, intellektual yarışların, kitab müzakirələrinin təşkilində iştirak etmişəm. Maraqlı layihələrdən biri "Welcome to Nakhchivan" çərçivəsində xarici tələbələrin muxtar respublika rayonlarına ekskursiyasının təşkili idi. Orada tərcüməçi kimi iştirak edir, həmin tələbələrə səyahət etdiyimiz bölgələr barədə məlumat verirdim. Qarşıda çoxlu layihələrimiz var, onlar üzərində işləyirik. Könüllülük məndə bir sıra xüsusiyyətlər formalaşdırdı. Uşaq vaxtlarından şeirə, aparıcılığa marağım olsa da, bu imkanlarımı könüllü kimi fəaliyyətimlə inkişaf etdirə bildim. Gələcəkdə peşəkar dövlət qulluqçusu kimi çalışmaq istəyirəm. Bu məqsədə gedən yolu da könüllülük fəaliyyətində görürəm.

*Yazıdan da göründüyü kimi, muxtar respublikamızda təcrübəli, bacarıqlı, müasir düşüncəli və milli dəyərləri özündə birləşdirən gənclik formalaşır ki, burada könüllülük fəaliyyətinin rolu danılmazdır. Özünü cəmiyyətə yararlı bir şəxsiyyət kimi formalaşdırmaq, təcrübə toplamaq, yeni dostlar qazanmaq, vaxtını səmərəli keçirmək, öyrənmək və bu kimi dəyərləri qazanmaq istəyirsənsə, könüllülük fəaliyyətinə sən də qoşul, KÖNÜLLÜ OL!*

Güntac ŞAHMƏMMƏDLİ

## Koronavirus infeksiyasına qarşı qabaqlayıcı profilaktik tədbirlər

***Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən 2019-cu ilin dekabr ayında ilk dəfə olaraq Çinin Uxan şəhərində naməlum mənşəli pnevmoniyanın törədicisi kimi yeni koronavirus aşkar edilib və onun törətdiyi xəstəliyin qeydiyyatına başlanılıb. Hazırda xəstəlik viruslarının artıq Tailand, Cənubi Koreya, Yaponiya və digər bir sıra ölkələrdə də yayılması davam etməkdədir.***

Muxtar respublika ərazisində koronavirus infeksiyasının yayılma ehtimalı olmasa da, onun geostrateji mövqeyi, həmsərhəd olan ölkələrə gediş-gəlişlər zəruri qabaqlayıcı profilaktik tədbirlərin gücləndirilməsini tələb edir. Bu məqsədlə tibb müəssisələrində sanitariya-gigiyena, əks-epidemik rejimlərin tələblərinin yerinə yetirilməsi və dezinfeksiya tədbirlərinin həyata keçirilməsi işinin gücləndirilməsi, kəskin respirator virus infeksiyasına şübhəli xəstələrin, xüsusən uşaqların və yaşlı əhalinin hospitalizasiyası üçün xüsusi palataların ayrılması və təchiz olunmasının təmin edilməsi üçün müvafiq tədbirlər görülüb. Tibb personalının fərdi mühafizə vasitələrindən (maskalardan) istifadə etməsi təmin olunub, dərman preparatlarının, dezinfeksiyaedici maddələrin, həmçinin tibb personalı üçün fərdi mühafizə vasitələrinin ehtiyatı yaradılıb.

Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzi, onun rayon təşkilatları tərəfindən dezinfeksiya işlərinə başlanılıb. Bu tədbir, ilk növbədə, əhalinin sıx məskunlaşdığı yerləri əhatə etməklə Naxçıvan şəhər avtovağzalında, dəmiryol vağzalında, "Cahan" Ticarət Mərkəzində həyata keçirilib.

Xəstəlik baş vermiş ölkələrdən gələn şəxslər üzərində tibbi müşahidənin aparılmasında gömrük və səhiyyə mütəxəssislərinin qarşılıqlı fəaliyyəti təmin olunub. Gömrük məntəqələrində, hava limanında monitorda muxtar respublikaya gələnlərin vizual tibbi müşahidəsi, hərarətinin ölçülməsi təşkil edilib. Gömrük-keçid məntəqələrinə yaxın olan səhiyyə müəssisələrində izolyatorlar ayrılıb.

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti*

## Sakinlərlə görüş keçirilib

Culfa rayonunda Əmək və Əhalinin Sosial Müdafiəsi, Kənd Təsərrüfatı nazirliklərinin, Dövlət Baytarlıq Xidməti və Dövlət Baş Sığorta Agentliyinin əməkdaşlarının iştirakı ilə sakinlərlə özünüməşğulluqla bağlı maarifləndirici görüş keçirilib.

Tədbirdə sakinlərə verilmiş aktivlərdən təyinatına uyğun istifadə edilməsi, iri və xırdabuynuzlu heyvanların saxlanılması, yetişdirilməsi, onlar arasında xəstəliklərə qarşı peyvəndləmə tədbirlərinin aparılması ilə bağlı müvafiq məlumatlar verilib. Həmçinin sığorta obyekti ilə bağlı itkilərin və ya



zərərlərin yaranmasına səbəb ola biləcək hadisələrin baş verməsi ehtimalı, bu ehtimala qarşı sığortaçının üzərinə götürdüyü öhdəliklər və digər zəruri işlər haqqında danışılıb.

Sonda sakinlər göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti*

## Arazboyu ərazilərdə monitorinqlər aparılıb



Epizootik tədbirlər planına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin əməkdaşları ayrı-ayrı bölgələrdə olur, çöl quşlarının daha çox toplaşdığı ərazilərdə xəstəliktörədici mikrob və həşəratlara qarşı dezinfeksiya tədbirləri aparır, çay və su hövzələrində monitorinqlər təşkil edirlər. Növbəti belə tədbir Sədərək rayonunda Arazboyu ərazilərdə aparılıb.

Xidmətin mütəxəssisləri rayon baytarlıq idarəsinin əməkdaşları ilə birlikdə sərhədboyu ərazilərdə, çay və su hövzələrində olub, vəhşi heyvan və çöl quşlarının daha sıx olduğu ərazilərdə monitorinqlər aparıblar. Monitorinqlər zamanı ölmüş heyvan və çöl quşlarının cəsədlərinə rast gəlinməyib. Arazboyu ərazilərə, həmçinin rayon ərazisindən keçən Şir arxına da baxış olub.

Qeyd edək ki, qonşu ölkələrdən diyarımıza uçub gələn çöl quşlarının toplandığı ərazilərdə xəstəliktörədicilər olan mikrob və həşəratlar üçün münbit şərait yaranır, onlar artıb çoxalırlar. Xəstəliktörədicilər, həmçinin müxtəlif yoluxucu xəstəliklərin yaranmasına da səbəb olurlar. Bu baxımdan aparılan məqsədyönlü tədbirlər, xüsusən də dezinfeksiya işləri mühüm əhəmiyyət kəsb edir. Bu sahədə xidmətin dezinfeksiyaedici avtomaşınlarından səmərəli istifadə olunur, lazımi dərman preparatları yerlərə çatdırılır. Mütəxəssislər xəstəliktörədici həşəratların və mikrobların ola biləcəyi ərazilərə baxış keçirib, çay kənarlarında, su hövzələrində qabaqlayıcı dezinfeksiya tədbiri aparıblar.

*Xəbərlər şöbəsi*


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 101